# Səyyar qəbullar



Dizaxlı kəndi.



Zalam kəndi.





Abrıx kəndi.



Bum qəsəbəsi.

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah-halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin iyul ayında səyyar qəbullar Abrıx, Dizaxlı, Zalam kəndlərində və Bum qəsəbəsində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ səsi".**
**Fotolar S. Umuyevindir.**

# Şura iclası



Rayon icra hakimiyyətində növbəti şura iclası keçirilmişdir. Şəhər, qəsəbə, kənd inzibati ərazi nümayəndələrinin, bələdiyyə sədrlərinin və aidiyyəti təşkilat rəhbərlərinin iştirak etdiyi tədbirdə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamından irəli gələn məsələlər - qəsəbə



və kənd ərazi nümayəndəliklərində təsərrüfatbaşına uçotun aparılması vəziyyətinin təhlil edilməsi, qanunsuz tikintilərə qarşı tədbirlərin görülməsi, yanğın və təbii fəlakət zamanı vətəndaşlara dəymiş ziyanın aradan qaldırılması məqsədilə fərdi yaşayış evləri və təsərrüfatların sığortalanmasının təşkil edilməsi, rayonda 2026-cı ilin taxıl biçini kompaniyasının mütəşəkkil şəkildə keçirilməsi və optimal müddətdə başa çatdırılması, yay mövsümü ilə əlaqədar meşə ərazilərində, həmçinin meşə sahələri ilə həmsərhəd ərazilərdə biçilmiş əkin sahələrində, quru ot və digər ərazilərdə yanğınlara qarşı qabaqlayıcı tədbirlərin görülməsi və məsələnin diqqətdə saxlanılması, mövcud problemlər və qarşıda duran məsələlər müzakirə edilmiş, müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

# Vətəndaş qəbulları



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindənn iyul ayının 3, 10, 17-də vətəndaşların qəbulları keçirilmişdir. Keçirilən qəbullar zamanı Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. Onların irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideynləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Polis işçilərinin peşə bayramı

Azərbaycan polisinin yaranmasının 108-ci ildönümü və 2 iyul - Azərbaycan Polisi Günü ilə əlaqədar Qəbələ rayonunda tədbir keçirilib. Öncə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, üzərinə tər güllər düzərək Ümummilli Liderə dərin ehtiramlarını bildirmişlər. Rayon polis şöbəsində davam edən tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayon hüquq mühafizə orqanlarının rəhbərləri, polis əməkdaşları və veteran polislər iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Fəxrəddin Abbasov əlamətdar gün münasibətilə şəxsi heyəti təbrik etmiş, Azərbaycan polisinin keçdiyi tarixi yol haqqında məlumat vermiş, Ulu Öndər Heydər Əliyevin polis orqanlarına göstərdiyi diqqət və qayğıdan danışmış, bu ənənənin bu gün ölkə rəhbərliyi tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırmışdır. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Ümummilli lider Heydər Əliyev tərəfindən daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı önəmli qərarlar qəbul edildiyini vurğulamış, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi hərtərəfli islahatlar çərçivəsində daxili işlər orqanlarının da müasirləşdiyini bildirmiş, asayiş keşikçilərini Azərbaycan polisinin yaranmasının 108-ci ildönümü və 2 iyul Azərbaycan Polisi günü münasibətilə təbrik etmişdir. Sonda xidmətdə fərqlənən bir qrup polis əməkdaşına rayon icra hakimiyyətinin fəxri fərmanları təqdim olunmuşdur.

